

# Zəfər ünvanlı mahnı

**Gələn ayın əvvəllərində Xalq artisti, professor, "Şöhrət" və "Şərəf" ordenli bəstəkar, Prezidentin fərdi təqaüdçüsü Tofiq Bakıxanovun 95 yaşı tamam olacaq. Qələmə aldığım bu sətirlər görkəmli sənətkarın işğalçı Ermənistan üzərindəki tarixi Zəfərimizdən ruhlanaraq dərhal yazdığı iki mahnı barədədir.**





...Ermənistan rəsmiləri sərxoş olub Cıdır düzündə Yallı oynayanda da azərbaycanlı əsgər anaları ağlayırdılar, Şuşa işğaldan azad ediləndən sonra qalib əsgərlərimizin həmin Cıdır düzündə Cəngi sədaları ilə sanki dağları belə silkələyən rəqsini görəndə də. Qədim Azərbaycan torpaqlarını, doğma Qarabağımızı düşmən tapdağından azad etmiş oğulların məhz bu meydandakı rəqsi nəinki əsgər anasını "ağladırdı", hətta qos-qoca-man, ağsaqqal kişilərimiz də riqqətdən kövrəlirdilər. O zaman mən bu şeiri yazmışdım:

## Fəxr elə Əsgər ki, bizimdir ŞUŞA...

*Ağlama əsgər anası, şux dayan,*
*Bax, önündə arzulardı qaynayan.*
*Öz oğlundur indi yallı oynayan.*
*Can gəlibdi hər çəmənə, hər daşa –*
*Fəxr elə Əsgər ki, bizimdir Şuşa!*

*Ağdama bax, durdu, dözdü ər kimi,*
*Doğdu Günəş Cəbrayıla zər kimi,*
*Qalxan oldu Murov da Tərtər kimi,*
*Layiqdır hər dağ-düzümüz alqışa,*
*Fəxr elə Əsgər ki, bizimdir Şuşa!*

*Sar qovuldu Xarıbülbül elindən,*
*Yer-göy tutur bir-birinin əlindən.*
*Türk sözü var milyonların dilində –*
*Sanki giribdir döyüşə min Paşa*
*Fəxr elə Əsgər ki, bizimdir Şuşa!*

*Qarabağda ağ yazıldı fərmanım –*
*Natəvanın sevincidir dərmanım.*
*Cıdır düzü, Xan səsidir dastanım,*
*Baş əymədik yüz borana, min qışa*
*Fəxr elə Əsgər ki, bizimdir Şuşa!*

Şeiri 2020-ci il noyabrın 15-də Tofiq Bakıxanovun evində qonaqların yanında oxudum. Onlardan biri Tofiq müəllimə baxdı: – Ustad, bu sözlərdən mahnı olar? – Tofiq müəllim gülümsündü və dedi: – Baxarıq.

Təxminən bir həftədən, ya da on gündən sonra Bakı Musiqi Akademiyasının əməkdaşı, musiqişünas Nərgiz Qulamovanın Zəfər mövzulu musiqi əsərləri mövzusunda "Xalq qəzeti"nin ünvanına göndərdiyi yazıda belə cümlələr də var idi: "Tofiq Bakıxanovun Əməkdar jurnalist İttifaq Mirzəbəylinin sözlərinə yazdığı "Zəfər nəğməsi" ("Fəxr elə, Əsgər ki, bizimdir Şuşa!" şeirimin mətninə bəstələmişdi) də musiqişünaslar tərəfindən maraqla qarşılanıb. Bəstəkarın dediyinə görə, mahnı Xalq artisti Ağasəlim Abdullayevin rəhbərlik etdiyi ansamblın müşayiəti ilə lentə alınmaq üçün hazırlanır.

Bu mahnını əlamətdar edən məqamlardan birincisi ahıl yaşlı bəstəkarın Qələbə sevincidirsə, digəri də, sözlərin müəllifinin əsgər analarına müraciət edərək indi Şuşada Yallı oynayan sərxoş erməni siyasətçinin deyil, məhz Azərbaycan əsgərlərinin olduğunu dilə gətirməsi, Qarabağımızın hər qarışına həyatın qaytarılmasının qeyd edilməsidir".

Tofiq Bakıxanovun mənim sözlərimə yazdığı başqa bir mahnı isə "Bağışla bizi, Şuşa..." adlanır. Marş tempində olan həmin mahnının not yazısını da təqdim edirəm.

Mahnının mətni belə idi:

*Salam Şuşa, qayıtdıq,*
*Bu vüsal çox gec oldu.*
*Sənsiz keçən ömrümüz*
*Nağıl oldu, heç oldu.*

*Cıdır düzü, bağışla,*
*Həsrət qaldın atlara.*
*Qovuldu qatır-qotur,*
*Başlayaq büsatlara.*

*Üzeyir bəy nisgili*
*Xoş ovqata köklənər,*
*Sadıqcanın mizrabı*
*Dinər, yenə dillənər.*

*Bağışla bizi Şuşa...*
*Gec olsa da, qayıtdıq.*

***İttifaq MİRZƏBƏYLİ,***
***Əməkdar jurnalist***